# ORTA ƏSR QALABOZU YAŞAYIŞ YERİ

**T.M.DOSTİYEV**
*Bakı Dövlət Universiteti*

Orta əsr Qalabozu yaşayış yeri Ağstafa rayonunun Qıraq Kəsəmən kəndi yaxınlığında, Kür çayının hündür sahilində yerləşir. Şimaldan, qərbdən və qismən də şərqdən Kür çayı ilə hüdudlanan, cənubda isə hündürlüyü 20 m-ə çatan dik yamaclı olmaqla bu yaşayış yeri əlverişli topoqrafik mövqeyə malikdir. Mikrorelyef əsasında yaşayış yerinin cənub kənarlarında istehkam qalıqlarının varlığını izləmək olur. Yaşayış yerinin sahəsi genişdir. Abidənin şimalında yerləşən 75 m uzunluqda, 15 m enində, təxminən 10 m hündürlükdə təpənin Narınqalanın qalıqları olduğunu ehtimal etmək olar. Narınqalanı qərbdən, şimaldan Kür çayı, şərq və cənub-şərqdən dərin xəndək qoruyurdu.

Abidə ilk dəfə 1976-cı ildə H.P.Kəsəmənli tərəfindən qeydə alınmış (1), 2003-2004-cü illərdə isə Azərbaycan MEA Arxeologiya və Etnoqrafiya İnstitutunun BTC neft boru kəməri dəhlizində arxeoloji qazıntı aparan ekspedisiyasının üzvləri yaşayış yerində olmuş, burada kəşfiyyat xarakterli çöl tədqiqat işləri görmüşlər.*

Yaşayış yerinin ərazisində bişmiş kərpiç, yonulmuş yerli ağ daş və çaydaşı kimi inşaat materiallarına tez-tez təsadüf olunur. Abidənin bəzi yerlərində tikili qalıqları izlənilir. Kür çayının mədəni təbəqəni yuması nəticəsində abidənin qərb tərəfində təxminən 2,2-2,5 m dərinlikdə çaydaşı və bişmiş kərpicdən qarışıq hörgü üsulu ilə inşa olunmuş divarın 5-6 cərgəsinin üzəri açılmışdır. Vizual müşahidə əsasında çılpaqlaşmış mədəni təbəqə yatımının burada qalınlığının 3 metrdən artıq olduğunu söyləmək olar.

Yaşayış yerinə baxış zamanı şirli saxsı məmulat istehsalı ilə bağlı dulus kürəsinin qalıqları qeydə alınmışdır.

Yaşayış yerinin ərazisi yerüstü arxeoloji materiallarla zəngindir. Toplanmış yerüstü arxeoloji materiallar əsasən şirsiz və şirli saxsı qab qırıqlarından, dən və kirkirə daşları fraqmentlərindən, bəzək əşyalarından ibarətdir. Şirsiz saxsı məmulat küp, goduş, güvəc, bardaq, küpə, dopu, qapaq qırıqları ilə təmsil olunmuşdur.

Küp qırıqları əsasən iri tutumlu küplərin gövdəsinin parçalarıdır. Onların əksəriyyətinin gilinin tərkibində qum qarışığı vardır. Bişmə prosesi qeyri-sabit hərarət rejimində olduğundan küplərin saxsısının kəsiyində boz təbəqə aydın müşahidə olunur. Bəzən küplərin çiyin və ağız, oturacaq hissələrinə rast gəlinir. Belə fraqmentlərdən biri ağzı yana qatlanmış, boğaz bildirilmədən birbaşa çiynə keçən iri tutumlu küpün qırığıdır. Qeyri-sabit hərarət rejimində bişirilmiş həmin küpün saxsısı

* Məlumat və materiallara görə t.e.n. S.H.Aşurova təşəkkür edirik.

məsaməli, rəngi çəhrayıdır (tablo I, şək.1). Bu tip küplər VIII-X əsrlərdə Azərbaycanda geniş yayılmışdı (2, s.66; 3, s. 147). Başqa bir fraqment bayıra qatlanmış ağzının kənarı qabırğavarı yapma naxışla bəzədilmiş orta tutumlu küpə məxsusdur (tablo I, şək.2). Belə küplər Azərbaycanda bütün orta əsrlər boyu istehsal olunurdu.

Toplanmış yerüstü arxeoloji materiallar arasında bir neçə nümunə şirsiz saxsı bardaqlara məxsusdur. Onlardan biri ağzının kənarı bayıra qatlanmış, hündür, dar boğazlı, lentşəkilli qulpu olan orta tutumlu bardağın qırığıdır. Digər bir bardaq qırığı nazik divarlı olub boğazının üzərində üç dalğalı cızma xətt çəkilmişdir. Genbogazlı bardaq fraqmenti çiyindən bogaza keçidi əks etdirir. Çiyin cızma xətlə salınmış konsentrik dairələrlə bəzədilmişdir (tablo I, şək 6).

Maldarlıq təsərrüfatı ilə bağlı olan sərnic qırıqları onların ağzının kənarlarının bayıra qatlandığını, alçaq, gen boğazının, lentşəkilli qulplarının olduğunu göstərir.

Şirsiz saxsı qab nümunələri arasında güvəc qırıqları xüsusilə çoxdur. Onların əksəriyyəti yarımkürəvi gövdəsi, 45 dərəcə bucaq altında içəriyə basılmış çiyni, gen ağzı, çiynə üfüqi yapışdırılmış qulpları olan güvəclərə mənsubdurlar. Qulplar cəftəvarı, üçbucaq, dirsək, qövsşəkillidir. Qulpların üzəri çox vaxt çərtmələr, cızma xətlər, nöqtələr, batıqlarla bəzədilmişdir (tablo I, şək. 5). Bəzi nüsxələrdə qısa, novçarı lülək vardır (tablo I, şək.4). Bu tip güvəclər Azərbaycanın orta əsr arxeoloji abidələrinin qazıntılarından məlumdur. XI əsrdən yayılan həmin tip sonrakı əsrlərdə hakim mövqe tutmuşdur ( 3, s. 153 ).

Şirsiz saxsı qab nümunələri arasında müxtəlif tutumlu küpələrin qırıqları da vardır. Saya nüsxələrlə (tablo I, şək. 3) yanaşı, üzəri cızma xətlər, yapma qurşaqlar, çərtmələrlə bəzədilmiş nümunələrə də rast gəlinir.

Saxsı qapaq qırıqları zəngvarı və diskşəkilli qapaqlara məxsusdurlar. Zəngvarı qapağa məxsus fraqmentin kənarları yuxarı qatlanaraq dəyirmiləşdirilmişdir. Qapağın divarları yuxarıya, konusvarı tərəfə doğru nazikləşir. Başqa bir qapaq qırığı disk şəkilli, göbələkvarı tutacaqlı qapağa məxsus olub tutacağın ortasında mərkəzə doğru batıq salınmışdır. Batığın ortasına oyuqlar salınmış və onların ətrafından kənarlara isə çərtmə xətlər çəkilmişdir. Bununla tutacağın üstündə günəşi xatırladan astral naxış əmələ gəlmişdir (tablo I, şək.7).

Şirsiz saxsı qab fraqmentlərinin xeyli hissəsini piyalə, kasa, nimçə, boşqab və xeyrə tipli süfrə qablarına mənsub nümunələr təşkil edir. Qeyd etmək lazımdır ki, şirsiz saxsı məmulatının bəzəyi zəngin olmayıb, əsasən cızma xətlərdən, çərtmələrdən, şırımlardan, yapma kəmərlərdən, barmağı basmaqla salınmış kiçik çuxurlardan ibarətdir. Bir nümunədə isə möhürlə salınmış basma naxışa rast gəlirik. Qara rəngli, kürəvi gövdəli qab parçasının üzərinə möhürlə heyvan, quş və bitki süjetli qurşaqlar salınmışdır (tablo I, şək. 10).

Toplanmış şirli saxsı məmulat piyalə, kasa, nimçə, bardaq və boşqab qırıqlarından ibarət olub şirlənmə xüsusiyyətlərinə və naxışçəkmə texnikasına görə müxtəlif tiplərə mənsubdurlar.

IX-X əsrlərə aid erkən şirli saxsı məmulat arasında yaşıl şir altından ağ anqobla naxışlanmış qab qırıqları üstünlük təşkil edir. Nimçə tipli qabın ağzının qırığı anqobla bəzədilərək yaşıl şirlə şirlənmişdir. Başqa bir nimçə tipli qabın divarının qırığı anqobla naxışlanmış və ba-

taqlıq rəngli yaşıl şirlə şirlənmişdir. Erkən şirli saxsı məmulat arasında şəffaf şir altından anqob və marqansla naxışlanmış qab nümunələri azlıq təşkil edir. Kasa və ya boşqaba məxsus fraqment şəffaf şir altından anqob və marqansla naxışlanmışdır. Naxış həndəsi elementlidir (tablo II, şək. 4).

Erkən şirli saxsı məmulat arasında polixrom qablara məxsus nümunə də vardır. O anqobla naxışlanmış, marqans və yaşıl ləkələrlə canlandırılmış, şəffaf şirlə şirlənmişdir.

Yuxarıla qeyd olunan erkən şirli saxsı qab qırıqları IX-X əsrlər üçün səciyyəvidir və Azərbaycanın orta əsr abidələrinin arxeoloji qazıntılarından yaxşı məlumdur (3, s.162-163; 4, s. 131-138; 6, s. 121; 7, s. 62; 8, s. 27).

Şirli saxsı nümunələri arasında yaşıl şirlə şirlənmiş monoxrom qabların qırıqları çoxluq təşkil edir. Onların əksəriyyəti şir altından cızma naxışla bəzənmişdir. Saya şirlə şirlənmiş nüsxələr də az deyil. Belə fraqmentlərdən biri kiçik tutumlu kasa və ya nimçə qırığı olub içəri tərəfdən açıq yaşıl şirlə şirlənmişdir. Şir bəzi yerlərdə tökülmüşdür (tablo II, şək. 5). Diskşəkilli, alçaq oturacağı olan kiçik tutumlu qabın fraqmenti içəri tərəfdən tünd yaşıl şirlə şirlənmişdir (tablo II, şək. 8). Yuxarıda qeyd olunduğu kimi, saya qablara nisbətən cızma naxışlı yaşıl şirli monoxrom qab qırıqları daha çoxdur. Onlar həndəsi və nəbati naxışlarla bəzədilmişdir. Halqavarı oturacaqlı qabın qırığı nazik cızma xətlə çəkilmiş torla bəzədilmiş və yaşıl şirlə şirlənmişdir. Şirin tərkibində tünd ləkələr vardır (tablo II, şək. 6). Nazik divarlı, nimçə tipli qabın divarının qırığı içəri tərəfdən nazik cızma xətlə spiralvari naxışla bəzədilmiş və açıq yaşıl şirlə şirlənmişdir. Halqavarı, mərkəzində kiçik, diskvarı qabarıqlıq olan oturacağa malik kasa tipli qabın qırığı içəri tərəfdən nazik cızma xətlə nəbati naxışla – palmetta ilə bəzədilərək yaşıl şirlə şirlənmişdir. Lakin şir əsasən tökülmüşdür. Qeyd edək ki, yaşıl şir altından cızma naxışla bəzədilmiş şirli qablar Azərbaycan dulusçuluq mərkəzlərində XI əsrin əvvəllərindən başlayaraq kütləvi istehsal edilmiş, XI-XV yüzilliklərdə xüsusilə geniş yayılmışdı.

Yaşıl şirlə şirlənmiş qab nümunələri arasında şir altından qara boya ilə bəzədilmiş nümunələrə də təsadüf olunur. Kiçik tutumlu bardağın qırığı tünd yaşıl şir altından qara boya ilə bəzədilmişdir (tablo II, şək. 3). Yaşıl şir altından qara boya ilə bəzədilmiş şirli qab nümunələrinə Azərbaycanın digər orta əsr abidələlərində də məhdud miqdarda rast gəlinir. Bu tip qablar Sərkərtəpə, Canaxır və Şabran abidələrindən tapılmışdır. Onların istehsalı XII əsrdən başlanmış, məhdud miqyasda sonrakı əsrlərdə də davam etdirilmişdir (3, s.165, 169).

Şirli saxsı qab qırıqları arasında yüksək bədiiliyi ilə fərqlənən XI-XIII əsrin əvvəllərinə aid polixrom şirli saxsı qab nümunələri də vardır. Polixrom şirli qabların rəng çalarlarında zümrüdü, qızılı, şabalıdı, tünd yaşıl rənglərə üstünlük verilmişdir (tablo II, şək. 9; tablo III, şək. 1-3). Polixrom şirli qabların dekorunda həndəsi və nəbati naxışlar aparıcıdır. Bəzən epiqrafik elementlərə rast gəlinir. Alçaq, halqavarı oturacaqlı kasa və ya nimçəyə məxsus fraqmentdə içəri tərəfdən cızma xətlərlə həndəsi naxış çəkilmiş, marqans ləkə və zolaqlar, qızılı rənglə bəzədilmiş şəffaf şirlə şirlənmişdir (tablo III, şək. 1). Başqa bir polixrom şirli kasa və ya boşqaba məxsus fraqment nazik cızma xətlərlə həndəsi naxışla, yaşıl, şabalıdı, püstə rəngi və zümrüdü rənglərdə bəzədilmiş və şəffaf

şirlə şirlənmişdir (tablo III, şəк.2). Halqavarı oturacaqlı кasaya məxsus fraqment incə zövqlə bəzədilməsi ilə diqqəti cəlb edir. Naziк cızma xətlə nəbati, həndəsi və epiqrafiк naxış çəкilmiş, yaşıl, zümrüdü, püstərəngi çalarda rənglərlə bəzədilmişdir. Fraqmentin üzərində nəsx xətti ilə yazılmış «Mahmud» adını oxumaq olur. Qab şəffaf şirlə şirlənmişdir (tablo III, şəк. 3). Boşqab tipli qabın fraqmentində yana qatlanmış ağzının кənarı XIII əsrin əvvəlləri üçün səciyyəvi olan təкrarlanan rəngli üçbucaqlardan ibarət naxış haşiyəsi ilə bəzədilmişdir. Qabın divarına içəri tərəfdən şabalıdı, tünd yaşıl və zümrüdü rənglərdə кonsentriк zolaqlar çəкilmişdir .

Şirli saxsı məmulat arasında XIII-XV əsrlər üçün səciyyəvi olan mavi və firuzəyi şirli qabların nümunələri daha çoxdur. Onlar кasa, nimçə, boşqab, bardaq tipli qabların qırıqları olub, cızma və ya qara boya ilə həndəsi, daha çox isə nəbati naxış elementləri ilə bəzədilmişdir (tablo III, şəк. 4-8).

Arxeoloji qazıntılarla müəyyən olunmuşdur кi, mavi şirlə şirlənmiş saxsı qablar hələ monqol işğalından əvvəl istehsal edilməyə başlansa da onların кütləvi istehsalı monqol ağalığı dövrünə təsadüf edir. XIV-XVI əsrlərdə mavi-firuzəyi şirli saxsı qablar Azərbaycanın, deməк olar кi, bütün bölgələrində geniş yayılmışdı (3, s. 169-171; 9; 10, s 12; 11, s.98).

Toplanmış yerüstü arxeoloji materiallar arasında bayır tərəfdən tünd göy, içəri tərəfdən şabalıdı şirlə şirlənmiş fayans qab qırığı da vardır.

Abidənin ilкin tədqiqi zamanı yerüstü arxeoloji materiallar arasında bəzəк əşyalarına da təsadüf olunmuşdur. Bəzəк nümunələri şüşə bilərziк və muncuq fraqmentləri ilə təmsil olunmuşdur. Bilərziк qırığı en кəsiyi dairəvi, üstü hamar, yaşıl rəngdə şüşədən hazırlanmış bilərziyin üçdə biridir (tablo I, şəк. 8 ). Gözmuncuğu qara şüşədən hazırlanmış, üzərinə ağ rəngli şüşədən gözlüкlər çəкilmiş və onların üzərinə mavi rəngli pastayabənzər maddə yapışdırılmışdır ( tablo I, şəк. 9).

Beləliкlə, abidənin ərazisində aparılmış кəşfiyyat xaraкterli ilкin tədqiqatlar və toplanmış yerüstü arxeoloji materialların təhlili Qalabozu yaşayış yerinin IX-XV əsrlərdə mövcud olmuş qəsrli yaşayış məsкəninin xarabalıqları olduğunu söyləməyə imкan verir.

## QEYDLƏR

1. Kəsəmənli H.P. Qazax rayonuna qısa müddətli ezamiyyətin hesabatı. // Azərbaycan MEA Arxeologiya və etnoqrafiya institutunun ÇTB EA, H-188.
2. Əhmədov Q.M. Azərbaycanın şirsiz saxsı məmulatı. Baкı: 1959.
3. Dostiyev T.M. Şimal-Şərqi Azərbaycan IX-XV əsrlərdə. Baкı: 2001.
4. Babayev İ.A. Qəbələnin ilк şirli qabları. // Azərbaycanın maddi mədəniyyəti. c.5, Baкı: 1964.
5. Əhmədov Q.M. Orta əsr Beyləqan şəhəri. Baкı: 1979.
6. Кудрявцев А.А. Поливная художественная керамика Дербента VIII-X вв. // Народное декоративно-прикладное искусство Дагестана и современность. Махачкала: 1979, с.111-132.
7. Джидди Г.А. Средневековый город Шемаха IX-XVII вв. Баку: 1981.
8. Новрузов А.И. Средневековая керамика Азербайджана (IX-XIII вв.). Баку: 1993.
9. Гамзатов Г.Г. Дагестан в XIII-XVI вв. Автореф. дисс. канд. ист. наук. М.: 1982.
10. Гамзатов Г.Г. Поливная керамика Дербента XIII-XIV вв. // Керамика древнего и средневекового Дагестана. Махачкала: 1981, с.110-120.
11. Ибрагимов Б.И. Средневековый город Киран. Баку-Москва: 2000




**Tablo 1**




Tablo 2




Tablo 3

## СРЕДНЕВЕКОВОЕ ПОСЕЛЕНИЕ ГАЛАБОЗУ

**Т.М.ДОСТИЕВ**

**РЕЗЮМЕ**

Статья посвящена средневековому поселению Галабозу, которое расположено вблизи селения Гыраг Кесаман Акстафинского района, на берегу реки Кура. Толщина культурного слоя с насыщенными археологическими материалами составляет более 3 м.

На основании анализа подъемного археологического материала поселение Галабозу датируется IX-XV вв.

## THE MEDIEVAL SETTLEMENT GALABOZU

**T.M.DOSTİYEV**

**SUMMARY**

The article deals with medieval settlement, which situated in the Agstafa region, near the Girag Kasaman village, on the bank of the river Kura. The depth of the cultural layer was more than 3 m from which a lot of archaeological material were recovered.

On the basis of the analyzed archaeological material it was established that galabozu settlement assigned to IX-XV c. A.D.